**UOT:** 297
**KBT:** 86.4
**MJ №** 171

# Bəktaşi poeziyasında təsəvvüf ideyalarının təzahürü

**Emin Orucov***

**Abstrakt.** Məqalədə İslam dininin təsəvvüf təlimində özünəməxsus mövqeyi olan, XIII əsrdə Hacı Bəktaş Vəli tərəfindən əsası qoyulan, Anadolu ərazisində üzə çıxan, daha sonra isə yaxın regiona yayılan bəktaşi təriqəti barədə ümumi məlumat verilir. Həmçinin araşdırmada bu təriqətə məxsus olan şairlərin əsrlər boyu formalaşdırdıqları poetik anlayış tədqiq edilir. Müxtəlif dövrlərdə bir sıra təsirə (məsələn, şiəlik məzhəbi və hürufilik təlimi) məruz qalaraq dəyişən dünyagörüşü ilə yanaşı, bəktaşi ədəbiyyatı içində baş vermiş yanaşma, üslub, təhkiyə, habelə mövzu və məzmun inkişafı məqalədə təhlil edilir. Tədqiqatın əsas mövzusu kimi, bəktaşi ədəbiyyatının tarixən bölündüyü birinci və ikinci mərhələlər ərzində yaşayıb-yaratmış məşhur şairlərin həyatı və ədəbi fəaliyyəti barədə ümumi məlumat verilir, hər birindən gətirilən poetik nümunələrə nəzər salınmaqla aralarında bir neçə cəhətdən müqayisələr aparılır, beləliklə, oxşar və fərqli cəhətləri göstərilir. Şairlərdən Yunus Əmrə, Abdal Musa, Qayğısız Abdal, Seyid İmaməddin Nəsimi, Şah İsmayıl Xətai, Pir Sultan Abdal, Qul Hümmət, Ruhi Bağdadi və Məhəmməd Füzulinin şeir anlayışları, onların təsirləndikləri mühit və cərəyanlar haqqında qeydlərlə bərabər, hər birinin mövzu ilə əlaqədar şeir nümunələri məqalədə göstərilmiş, şeirlərdəki həm məna yönü, həm də ifadə edilən mistik-fəlsəfi görüşlərin təsvir üslubu çözülmüşdür. Bütün bunlardan əlavə, istər bəktaşi ədəbiyyatının müəyyən mərhələlərində, istərsə də bu ədəbiyyata mənsub adıçəkilən şairlərin yaradıcılıqlarında bəktaşilikdəki mistik motivlərə fərqli münasibətlər cəhətdən paralellər aparılmışdır. Nəticə və mövzu haqqında ümumi rəy geniş şəkildə nümunələrdə öz əksini tapmışdır.

**Açar sözlər:** bəktaşilik, təriqət, mistika, fəlsəfə, poeziya, şair, ədəbiyyat

* AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun dissertantı; Bakı, Azərbaycan
E-mail: eminorucov@ait.edu.az
https://orcid.org/0000-0002-0583-5053

**Məqaləyə istinad:** Orucov, E. [2023] Bəktaşi poeziyasında təsəvvüf ideyalarının təzahürü. *“Metafizika” jurnalı, 6(2),* səh.70-82.

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 25.04.2023*
*Təkrar işlənməyə göndərilmişdir: 22.05.2023*
*Çapa qəbul edilmişdir: 06.06.2023*

## 1.Giriş

İslam dini daxilində VIII-IX əsrdən başlayaraq formalaşan təsəvvüf (sufizm) təlimi hər zaman poeziya ilə iç-içə olmuş və öz düşüncə sistemini ifadə etmək üçün poeziyanın dilindən mütəmadi istifadə etmişdir. Məhz bu baxımdan mistik və fəlsəfi mahiyyətli təsəvvüf poeziyasını İslam coğrafiyasında poeziya və ümumiyyətlə, ədəbiyyatın ayrı bir qolu kimi dəyərləndirə bilərik. Təsəvvüf təliminin müxtəlif qollarında- təriqətlərdə poetik anlayış, əsasən, konkret motivlər üstündə qurulsa da, hər birində fərqli yanaşma və məqamlara rast gəlirik.

Adıçəkilən bəktaşilik təriqətində də poeziya, şeiriyyət tarixboyu özünüifadə vasitəsi olmuşdur. Təriqətin quruluş dövründən etibarən bu cərəyana mənsub şairlər öz yaradıcılıqlarında bəktaşi düşüncəsini və ümumən, mistik təsəvvüf görüşlərini əks etdirmişlər. Həmin şairlər arasında Yunus Əmrə, Qul Hümmət, Abdal Musa, Balım Sultan, Qayıqçı Qul Mustafa, Aşiq Sidqi Baba, Qələndən Çələbi, Qul Nəsimi, habelə Azərbaycan ədəbiyyatından Şah İsmayıl Xətai və Məhəmməd Füzulinin adlarını çəkə bilərik [Nacar, 2021, s.69].

## 2.Bəktaşilik təriqəti haqqında ümumi məlumat

Təsəvvüf təlimi içində özünəməxsus yerə malik türkmənşəli bəktaşilik təriqəti Hacı Bəktaş Vəlinin (XIII əsr) adı ilə bağlı olub, əsasən, Anadolu ərazisində, Balkan yarımadasında geniş yayılmışdır [Uğur, 2020, s.38]. Osmanlı hökmdarı II Bəyazidin hakimiyyəti dövründə yaşamış Balım Sultan XVI əsrdə təriqəti sistemləşdirmiş və daha da gücləndirmişdir [Mélikoff, 1993, s.22]. Bu təriqət, əsasən, İslam dini təməlində təşəkkül tapsa da, öz daxilində bəzi qədim türk inanclarını və dünyagörüşünü də qorumuşdur [Erdoğan, 1993, s.26].

Osmanlı sultanları bəktaşilik təriqətinə olduqca müsbət yanaşmış, hətta ordunun əsas hissəsini təşkil edən yeniçəri ocağının inanc təməli bu təriqətə əsaslanmışdır. İkinci Mahmudun əmri ilə 1826-cı ildə yeniçəri ocaqları ləğv edildiyi zaman bəktaşilik təriqətinin fəaliyyəti də məhdudlaşdırılmış və Türkiyə Respublikasında 1925-ci ildə bütün təriqətlər kimi rəsmi şəkildə tamamilə qadağan edilmişdir [Ocak, 1992, s.374].

Anadoludakı varlığı ərzində gah sabit, gah da keşməkeşli bir tarixə malik olan bəktaşilik bu torpaqlardan əlavə, həmçinin İraqda, Misirdə, Balkan yarımadasında və Şərqi Avropada yayılmışdır [Ocak, 1992, s.379]. Hazırda təriqətin başlıca mərkəzlərindən biri məhz Albaniyanın paytaxtı Tirana şəhərində yerləşir [Turan, 2018, s.638].

Adıçəkilən Balım Sultan bəktaşiliyin inanc əsaslarını sistemləşdirmiş, “Haqq- Məhəmməd-Əli” məfhumunu və on iki imam əqidəsini qəbul etmişdir. Bu baxımdan, bəktaşilik təriqəti öz daxilində

cəfərilik məzhəbinə mənsub olduğunu iddia etsə də, əslində, bu məzhəbdən və ümumilikdə, mahiyyətinə görə şiəlikdən fərqlidir [Ocak, 1992, s.375].

Bəktaşilik təriqətinə mənsub şəxslər ənənəvi İslam anlayışından və ibadətlərdən uzaq olsalar da, İslamın əsas inanc prinsiplərini qəbul edir, lazımi dini ayinləri sünni ənənəsinə əsasən həyata keçirirlər [Eröz, 1990, s.147-148].

**3.Bəktaşilikdə poeziyanın yeri**

Mövzuya başlarkən qeyd etdiyimiz kimi, şeir, poeziya bütün təriqətlərlə yanaşı, bəktaşilik üçün də öz düşüncə sistemini ifadə etməkdən ötrü ənənəvi vasitə olmuşdur. Bəktaşi cərəyanı çərçivəsində XIII-XV əsrlərdə formalaşıb inkişaf etmiş poeziya nümunələri ümumi ifadə ilə "bəktaşi ədəbiyyatı" adlanır. Mənbələrdə bu ədəbiyyatın tarixən iki mərhələyə bölündüyünü görürük: I mərhələ XVI əsrədək davam etmiş və ardınca da şiəliyin bəktaşi düşüncəsinə, şeiriyyətinə təsiri ilə üzə çıxıb bu günədək gələn II dövrü başlamışdır [Temizkan, 2005, s.686].

Bəktaşi ədəbiyyatının ilk mərhələsində inanc prinsiplərinin dəqiqləşmədiyini və "Haqq-Məhəmməd-Əli" məfhumunun əsas etibarilə qəbul edilmədiyini, ənənəvi İslam anlayışının davam etdiyini, motivlərin mistik təsəvvürdən uzaq olduğunu görürük [Temizkan, 2005, s.686].

Bu dövrün ən məşhur şairlərindən biri Yunus Əmrədir. Həyatı barədə məlumatlar məhdud və təzadlıdır, hətta müxtəlif mənbələrdə yaşadığı əsr haqqında fərqli iddialar var, ancaq əksər tarixçilər yekdilliklə onun XIII əsrdə yaşayıb-yaratdığını bildirirlər [Tatcı, 2013, s.600]. Mənbələrdə Yunus Əmrənin özündən sonrakı şairlərə böyük təsiri olduğu və bəktaşi ədəbiyyatının məhz onun yaradıcılığından qaynaqlandığı vurğulanır [Temizkan, 1999, s.311]. Anadoluda türkdilli poeziyanın banisi olan Yunus Əmrə şeirlərində bəktaşilik düşüncəsi içində sevgi, sədaqət, dürüstlük, xeyirxahlıq, gözəllik kimi yüksək insani keyfiyyətləri tərənnüm edir [Özmen, 1998, s.71].

Bəktaşi ədəbiyyatının ikinci mərhələsi şiəliyin bu təriqət üzərində artan təsirinin əyani nümunəsi olmuşdur. Mənbələr XVI əsrdə Anadolu ərazisində şiə düşüncəsinin yayılmasında şiə məzhəbli Səfəvilər Dövlətinin və bilavasitə onun banisi Şah İsmayılın nüfuzunu, habelə hürufilik cərəyanını əsas amil hesab etməkdədir [Temizkan, 2011, s.327]. "Xətai" təxəllüsü ilə şeirlər qələmə almış Şah İsmayılın ölkə sərhədini aşan bu güclü nüfuzu onun xalq arasında həm qədim Turan ideyasının yeni rəhbəri, həm də on ikinci imam Mehdinin təcəssümü kimi qəbul edilməsi ilə izah olunmuşdur [Amanoğlu, 2007, s.604].

Maraqlıdır ki, Xətai öz əsərlərində Hacı Bəktaş Vəlidən, Yunus Əmrədən, Nəsimidən təsirlənmiş və qələmə aldığı “Nəsihətnamə” məsnəvisində bəktaşiliyin inanc prinsiplərini öz üslubu ilə izah etmişdir [Amanoğlu, 2007, s.605]. Əsərlərində bəktaşiliyin qurucusu Hacı Bəktaş Vəlinin də adını açıq şəkildə çəkmişdir:

*Məhəmməd, Əlidir qırxların başı,*
*Vuralım yezidə lənəti daşı.*
*Hünkar Hacı Bəktaş Vəlidir eşi,*
*Biz Məhəmməd-Əli deyənlərdəniz* [Ergun, 1956, s.89].

Xətai yaradıcılığında Hacı Bəktaş Vəlidən bəri gələn “dörd qapı, qırx məqam” fikri də aydın şəkildə təzahür edir [Amanoğlu, 2007, s.606]:

*Dörd qapu, qırx məkan, yetmiş iki qat,*
*“Məhəbbət” dedigin təcəlliyi-zat,*
*Möminə, müslümə, xeyir-nəsihət,*
*Məhəbbətdən keçən haqdan da keçər* [Xətai, 2005, s.332].

Göründüyü kimi, bəktaşi ədəbiyyatında XVI əsrdən etibarən başlayan mərhələ ənənəvi dini düşüncədən tədricən yayınma, motivlərə mistik və əfsanəvi çərçivədən baxma meyilləri ilə xarakterikdir. Məhz bu baxımdan ikinci mərhələdə ərsəyə gəlmiş poetik nümunələrdə məna dərinliyi, bədii kolorit zənginliyi, yeni mövzu axtarışları daha çox nəzərə çarpmaqdadır [Temizkan, 2011, s.328]. Bütün bu mətləbləri nəzərə aldıqda bəktaşi ədəbiyyatı təriqətin inanc prinsiplərini və onun mərhələlər ərzində inkişafını göstərən ən vacib mənbə hesab edilir [Ocak, 1992, s.378].

## 4.Məşhur bəktaşi şairləri və onların yaradıcılığında mistik-fəlsəfi görüşlər

### *1.4.Birinci mərhələ (XIII-XVI)*

Qeyd etdiyimiz kimi, bəktaşi ədəbiyyatının ilk mərhələsində yazılmış şeirlərdə əsas etibarilə ənənəvi, qeyri-əfsanəvi anlayış üstünlük təşkil edir. Bu dövrdə yaşamış şairlərdən Yunus Əmrə, Səid Əmrə, Abdal Musa, Qayğısız Abdal, Nəsimi, Sürüri və Şeyx Bədrəddin Simavinin adlarını çəkə bilərik.

***Yunus Əmrə*** (1240-1320)

Əsas etibarilə heca vəznində, yəni xalq tərzində şeirlər qələmə almış Yunus Əmrənin iki toplu əsəri məlumdur: “Risalətün-nüshiyyə” və “Divan” [Tatcı, 2013, s.603]. Poetik nümunələrdə ilahi eşqi, qardaşlığı, mərhəməti tərənnüm etmiş, insanın kamillik yolunun ilahi əxlaqı mənimsəməkdən keçdiyini göstərmiş və kamil insanı Məhəmməd peyğəmbərin timsalında təsvir etmişdir [Tatcı, 2013, s.604]:

*Sufilərə söhbət gərək,*

*Əxilərə axirət gərək,*
*Məcnunla Leyla gərək,*
*Mənə səni gərək, səni* [Özmen, 1998, s.76].

*Araya-araya bulsam izini,*
*İzinin tozuna sürsəm üzümü,*
*Haqq nəsib eyləsə, görsəm üzünü,*
*Ya Məhəmməd, canım arzular səni* [Özmen, 1998, s.77].

*Həzrət Əli babaları,*
*Məhəmməddir dədələri;*
*Arşın iki küpələri*
*Həsən ilə Hüseyndir* [Özmen, 1998, s.78].

Göründüyü kimi, Yunus Əmrənin şeirlərində bəktaşi ədəbiyyatının birinci mərhələsinə xas olan ənənəvi inanc prinsiplərinin təbliği hakimdir.

***Səid Əmrə*** (XIII əsr)

Haqqında mənbələrdə çox məhdud məlumat olan bu şair Yunus Əmrə ilə eyni dövrdə yaşamışdır. Şeirlərinin üslubu və məzmunu da məhz Yunus Əmrəni xatırladır [Alkan, 2008]:

*Talib olan Mustafaya tapşırar özün Haqqa,*
*Yoluna fəda qılar, keçər xanümanından* [Özmen, 1998, s.200].

Şair burada "Mustafa" dedikdə Məhəmməd peyğəmbəri nəzərdə tutub, ənənəvi düşüncəni davam etdirir.

***Abdal Musa*** (XIV əsr)

Bəktaşi ədəbiyyatının mühüm simalarından biri kimi qəbul edilir. O, Məhəmməd-Əli birliyi, yezidin düşmənliyi, Həzrət Əlinin Merac hadisəsində iştirakı kimi sonralar bəktaşi ədəbiyyatının əsas prinsiplərinə çevrilmiş mövzuları ilk dəfə ədəbiyyata gətirən şairlərdən hesab edilir [Temizkan, 2005, s.690]. Bu baxımdan, bəktaşilikdə tez-tez vurğulanan "əfsanəvi Merac" hadisəsi barədə ilk misralar da ona məxsusdur:

*Məhəmməd Meracın yoluna girdi,*
*Bu sirr qayət sirr içində sirr idi.*
*Şir donunda xətəm möhrünü verdi,*
*Bu sirri kim edər Əlidən qeyri* [Temizkan, 2005, s.691].

Şair "Murtəza" adı ilə ifadə etdiyi Həzrət Əlinin də Merac hadisəsində iştirak etdiyini, Məhəmməd peyğəmbərə (Mustafa) köməkçi olduğunu və bu mənada bəktaşi düşüncəsinə əsasən, onların eyni səviyyədə durduqlarını təsvir etməkdədir.

***Qayğısız Abdal*** (XIV əsr)

Həyatı barədə məlumat, demək olar ki, mövcud deyil. Bəktaşi ədəbiyyatının sistemləşməsində və həmçinin bu təriqətin Misirdə yayılmasında öncül olduğu qəbul edilir. Öz şeir anlayışında Yunus Əmrənin yolunu davam etdirmişdir [Azamat, 2022, s.75]. Şeirlərində Məhəmməd peyğəmbər və Həzrət Əlini eyni səviyyədə tərif etmiş, Peyğəmbəri ağıl dəryası, Əlini isə eşq bazarının sultanı adlandırmışdır [Temizkan, 2005, s.692].

*İnsani-kamil ki, derlər,*
*Mustafadır, Murtazadır.*
*Daha kim vardır cahanda,*
*Mən qeyri-insan bilməzəm* [Gaybi, 2021, s.843].

***Seyid İmaməddin Nəsimi*** (1369-1417)

Azərbaycan şairi İmadəddin Nəsimi bəktaşilər tərəfindən “yeddi ulu ozan” adlandırılan şairlərdən biri qəbul edilməkdədir [Bilgin, 2007, s.4]. Digərləri - M. Füzuli, Xətai, Pir Sultan Abdal, Qul Hümmət, Yəmini və Viranidir [Keleş, 2017, s.58]). Nəsimi Azərbaycanın Şamaxı şəhərində dünyaya gəlmişdir [Nəsimi, 2004, s.5] O, əslində, hürufi cərəyanına mənsub şair olsa da, bəktaşi şairləri arasında yolundan dönməzliyin təcəssümü kimi böyük nüfuza malik olmuşdur [Keleş, 2017, s.58]:

*Mustafanın möcüzündən iki şəqq oldu qəmər,*
*Heybətindən Heydərin dağlar yerindən qopdu* [Nəsimi, 2004, s.107].

Nəsimi də yuxarıdakı misralarında Məhəmməd peyğəmbəri “Mustafa” və Həzrət Əlini “Heydər” ləqəbləri ilə ifadə edərək, onların möcüzə göstərməkdə eyni gücə malik olduqlarını bildirir. Bəktaşi ədəbiyyatının ikinci mərhələsinə xas olan mistik təhkiyə özünü bu misralarda tədricən göstərməkdədir.

### *2.4.İkinci mərhələ (XVI əsrdən etibarən)*

Səfəvilər dövlətinin və ümumilikdə, şiəlik düşüncəsinin təsirində qalan bəktaşi ədəbiyyatı XVI əsrdən başlayaraq, ənənəvi dini anlayışdan uzaqlaşmış və qələmə alınan şeir nümunələri bədii cəhətdən daha mistik, əfsanəvi və fəlsəfi mahiyyət qazanmışdır. Bu dövrün məşhur şairləri arasında Şah İsmayıl Xətai, Pir Sultan Abdal, Qul Hümmət, Ruhi Bağdadi, Məhəmməd Füzuli, Nəbati və Xəyalinin adlarını çəkə bilərik [Özmen, 1998, s.12].

***Şah İsmayıl Xətai*** (1487-1524)

Səfəvilər dövlətinin banisi Şah İsmayıl klassik Azərbaycan ədəbiyyatının ən böyük şairlərindən biridir. “Xətai” təxəllüsü ilə yazdığı lirik şeirlərində, həmçinin “Dəhnamə” məsnəvisində mistik təsəvvüf anlayışı və dini motivlərə poetik baxış onun yaradıcılığında

xarakterikdir. "Haqq-Məhəmməd-Əli" inancını, on iki imama, əhli-beytə məhəbbətini hər şeirində bildirən [Keleş, 2017, s.59] Xətainin aşağıda qeyd edilən misraları bu mətləbə aydın nümunədir:

*İqbali-üməm, kəmali-taət,*
*Ənvari-hüda, çirağı-dövlət,*
*Miftahi-kəlid, babi-cənnət*
*Allahü Məhəmmədü Əlidir* [Xətai, 2005, s.242].

***Pir Sultan Abdal*** (XVI əsr)

Bəktaşi ədəbiyyatının, ümumilikdə, klassik türk şerinin böyük şairlərdən sayılan Pir Sultan Abdalın doğulduğu yer tarixi mənbələrdə Sivas vilayəti olaraq göstərilir. Yarıəfsanəvi şəxsiyyətə malik olan bu şair öz əsərlərində şiə-Səfəvi təbliğatını aparmış, hətta Səfəvi şahının paytaxt İstanbulu fəth etməsini istəmiş, elə bu səbəbdən də edam edilmişdir [Keleş, 2017, s.60]:

*Çarşılarda dolanıram,*
*Mən Haqqam, Haqdan gəlirəm.*
*On iki imamı haqq bilirəm,*
*Dedikləri dəli mənəm* [Özmen, 1998, s.200].

Gördüyümüz kimi, Pir Sultan Abdalının bu misraları təkcə on iki imamı vəsf etməklə qalmır, həmçinin Həllac Mənsurdan gələn qədim "ənəlhəqq" ideyasını mənimsəyərək, panteist xarakter daşıyır. Bu düşüncə həmin mərhələdəki bəktaşi şairlər arasında səciyyəvi xüsusiyyətdir.

***Qul Hümmət***

Öz şeirlərinə əsasən, yaşadığı dövrün XVI-XVII əsrlər olduğu qəbul edilən Qul Hümmət "yeddi ulun ozan"dan biri sayılır. Özündən sonrakı bəktaşi şairlərinə böyük təsir göstərdiyi bildirilir [Keleş, 2017, s.61]. Şairin əsərlərində Xətainin təsiri hiss edilir. Qul Hümmət panteist təfəkkürlü insanı Tanrı məfhumunun təcəssümü kimi görmüşdür. Tanrının bu təcəssümünün ən kamil nümunəsinin isə Həzrət Əli olduğunu qələmə aldığı bir çox şerində vurğulamışdır [Özmen, 1998, s.290]:

*Bir ismi Əlidir, bir ismi Allah,*
*İnkarım yoxdur həm vallah, həm billah.*
*Məhəmməd-Əli yoludur Allah, eyvallah,*
*Mən Əlidən qeyri bir ər görmədim* [Özmen, 1998, s.293].

***Ruhi Bağdadi*** (XVI əsr)

Əsərlərində panteist mahiyyətli "vəhdəti-vücud" ideyasını əks etdirmiş Ruhi Bağdadi bir çox mənbədə bəktaşi şairi kimi qəbul edilsə də əslində, bu barədə əsaslı məlumat yoxdur [Ak, 2008, s.205]. Şairin əsərlərində isə bəktaşi təsiri sezilməkdədir. O, "bəktaşi" anlayışı ilə

insanın hələ yaradılmazdan əvvəl Tanrıya məxsus qüvvədən pay aldığını və bu mənada Tanrının Yer üzündəki təzahürü olduğunu ifadə edir [Özmen, 1998, s.421]:

*Surətdə, nə ola, zərrə isək, mənidə Yuhuz,*
*Ruhül-qüdsün Məryəmə nəfx etdiyi ruhuz* [Özmen, 1998, s.421].

Şair bu misralarda insanın surətdə (zahirdə) zərrədən ibarət olduğunu, mənaca, yəni batində isə əslində, Tanrı olduğunu vurğulamaqdadır.

***Məhəmməd Füzuli*** (1494-1556)

Bağdad şəhərində dünyaya gəlmiş böyük Azərbaycan şairi Füzuli bəktaşi ədəbiyyatındakı “yeddi ulu ozan” sırasındadır. Hərçənd bəzi mənbələrdə onun bəktaşi şairi olduğu inkar edilsə də [Karahan, 1996, s.242], bəktaşi təriqətində xüsusi bir yerə malikdir. “Hədiqətüs-süəda” əsərində Kərbəla faciəsini özünəməxsus bir üslubda təsvir etmiş, habelə şeirlərində daim bəktaşiliyin inanc əsaslarından çox vacib şəxslər olan Həzrət Əli, Həzrət Həsən və Həzrət Hüseyni tərənnüm etmişdir [Keleş, 2017, s.59]:

*Mərifət meracının mənbəri üstündə xətib,*
*Dil açıb söyləyə ta mənqəbəti-Heydəri-Al.*

*Elm dəryası Hüseyn ibn-Əlidir, bunu bil,*
*Mərifət əhli deyir: ondadır hər fəzlü kəmal”*[Füzuli, 2005, s.231].

*Ey dərdpərvəri-ələmi-Kərbəla Hüseyn,*
*Vey Kərbəla bəlalərinə mübtəla Hüseyn.*
*Qəm parə-parə bağrını yandırdı dağilə,*
*Ey laleyi-hədiqəyi-Ali-Əba Hüseyn* [Füzuli, 2005, s.148].

**5.Nəticə**

Təsəvvüf təliminin bəktaşi qoluna (təriqətinə) məxsus ədəbi nümunələri tədqiq edərkən, istər bu ədəbiyyatın tarixi məcrada keçdiyi birinci mərhələdə, istərsə də ikinci mərhələdə mistik-fəlsəfi görüşlərin, habelə “vəhdəti-vücud”, “ənəlhəqq” kimi panteist ideyaların təsvir və təbliğini açıq-aydın şəkildə görməkdəyik. Təriqətin hələ yenicə formalaşdığı, ənənəvi din düşüncəsindən qopmadığı ilk dövrlərdə - XIII-XIV əsrlərdə - yaşayıb-yaratmış şairlərin əsərlərində bu yanaşma əsas etibarilə qarşımıza çıxsa da, XV əsr, xüsusilə XVI əsrdən etibarən bəktaşi şerində mistik məğzə malik yanaşmanın, əfsanəvi xarakterli mövzuların və təhkiyə tərzinin inkişaf etdiyinə rast gəlirik.

Birinci mərhələyə məxsus şairlərdə daha çox xalq dilinə, üslubuna yaxınlıq hiss edilsə də, ikinci mərhələdə dil cəhətdən bir qəlizləşmə baş verir. Məsələn, Yunus Əmrənin şeirlərini oxuyub rahatlıqla anlayan müasir oxucu sonrakı əsrlərdə yaşamış şairlərin, məsələn, Ruhi Bağdadinin əsərlərini başa düşməkdə çətinlik çəkə bilər. Bu məsələ bir çox amillə izah oluna bilər.

Həmçinin qələmə alınmış poetik nümunələrdə yeni mövzu və təhkiyə axtarışı ilə yanaşı, yeni dil və üslub axtarışının nəticəsi kimi də qəbul edilməsi mümkündür.

Qeyd oluduğu kimi, XVI əsrədək ənənəvi sünni düşüncə xətti əsasında formalaşmış bəktaşi ədəbiyyatının həmin dövrdən başlayaraq, Səfəvi Dövlətinin təsiri ilə şiəliyə və eləcə də hürufiliyə meyil göstərməsi bir sıra ictimai-siyasi amillərdən qaynaqlanır. Bu kimi meyli isə bəktaşi şairlərinin öz yaradıcılıqlarında yeni və daha sərbəst zəmin tapması ilə açıqlamaq mümkündür.

XVI əsrədək dini motivləri dəyişməyə cəhd etməyən qələm adamları yeni mərhələ ilə bərabər, mistik, fəlsəfi və əfsanəvi səciyyəli bir yol izləmişlər. İstər bəktaşi ədəbiyyatında, istərsə də ümumilikdə, klassik türk divan ədəbiyyatında bu xətt dövrümüzə qədər davam etmişdir. Ənənəvi dini motivlərə qeyri-adi baxışla və mistik təfəkkürlə baxıb anlamağa çalışmaq həm dini motivləri fərqli mövqedən anlamaq ehtiyacından, həm də bədii cəhətdən inkişafdan irəli gəlirdi.

## ƏDƏBİYYAT

**1.** Nacar, F. (2021). Osmanlı sahasında Kızılbaşlık ve Alevi-Bektaşi şairler, *Dünya İnsan Bilimleri Dergisi, 1,* s.64-95.

**2.** Uğur, A. (2020). *Klasik Türk şiirinde Bektaşilik*, İstanbul: Paradigma Akademi, 324 s.

**3.** Mélikoff, I. (1993). *Uyur idik Uyardılar (Alevilik-Bektaşilik araştırmaları)*. Çev, Turan Alptekin. İstanbul: Cem Yayınevi. 288 s.

**4.** Erdoğan, K. (1993). *Alevilik Bektaşilik*, İstanbul: İletişim Yayınları, 109 s.

**5.** Ocak, A. Y. (1992). *Bektaşilik*, TDV İslam Ansiklopedisi, V, s.373-379.

**6.** Turan, F. A. (2018). *Arnavutluk'taki Bektaşi tekkeleri, IV.* Uluslararası Alevilik ve Bektaşilik Sempozyumu (18-20 Ekim 2018 Ankara) Bildiriler Kitabı, s.633-648.

**7.** Eröz, M. (1990). *Türkiye'de Alevilik Bektaşilik.* Ankara: Kültür Bakanlığı Yayınları, 439 s.

**8.** Temizkan, M. (2005). *Bektaşi edebiyatının birinci dönemi ve bu dönemdeki hakim temalar üzerine bir inceleme*, Fikret Türkmen Armağanı, s.685-693.

**9.** Tatcı, M. (2013). *Yunus Emre*, TDV İslam Ansiklopedisi, XLIII, 600- 606.

**10.** Temizkan, M. (1999). *Bektaşiliğin, Bektaşi edebiyatının temel kaynakları ve Hacı Bektaş Veli'nin Bektaşi edebiyatına tesiri.* I. Türk Kültürü ve Hacı Bektaş Veli Sempozyumu Bildirileri, s.311-316.

**11.** Özmen, İ. (1998). *Alevi-Bektaşi şiirleri antolojisi (Cilt I)*. Ankara: Kültür Bakanlığı Yayınları, 592 s.

**12.** Temizkan, M. (2011). Bektaşi edebiyatının ikinci dönemindeki hakim temalar. *Türk Kültürü ve Hacı Bektaş Veli Araştırma Dergisi, 59*, s.325-340.

**13.** Amanoğlu, E. (2007). *Şah Hatai ve Bektaşilik*, 2. Uluslararası Türk Kültür Evreninde Alevilik ve Bektaşilik Bilgi Şöleni Bildiri Kitabı (1. cilt), s.603-610.

**14.** Ergun, S. N. (1956). *Hatayi Divanı: Şah İsmail Safevi, Edebi hayatı ve nefesleri*. İstanbul: Maarif Kitaphanesi, 248 s.

**15.** Xətai, Ş. İ. (2005). *Əsərləri* (tərtib edənlər: Əliyar Səfərli, Xəlil Yusifli). Bakı: Şərq-Qərb, 384 s.

**16.** Alkan, M. (2008). *Said Emre*, TDV İslam Ansiklopedisi, XXXV, 555-556.

**17.** Azamat, N. (2022). *Kaygusuz Abdal*, TDV İslam Ansiklopedisi, XXV, 74-76.

**18.** Gaybi, Ş. A. (2021). *Kaygusuz Abdal Külliyatı* (Hazırlayan: Abdurrahman Güzel), Ankara: Türk Dil Kurumu Yayınları, 1256 s.

**19.** Bilgin, A. A. (2007). *Nesimi*, TDV İslam Ansiklopedisi, XXXIII, 3-5.

**20.** Keleş, R. (2017). Yedi Ulu Ozan'ın yedi sembolizmi. *Türk Kültürü ve Hacı Bektaş Veli Araştırma Dergisi, 83*. s.49-79.

**21.** Nəsimi, İ. (2004). *Seçilmiş əsərləri, I cild* (Tərtib edən: Həmid Araslı), Bakı: "Lider" nəşriyyatı, 345 s.

**22.** Özmen, İ. (1998). A*levi-Bektaşi şiirleri antolojisi (Cilt II),* Ankara: Kültür Bakanlığı Yayınları, 757 s.

**23.** Ak, C. (2008). *Ruhi-yi Bağdadi*, TDV İslam Ansiklopedisi, XXXV, 205-206.

**24.** Karahan, A. (1996). *Fuzuli*, TDV İslam Ansiklopedisi, XIII, 240- 246.

**25.** Füzuli, M. (2005). *Əsərləri, IV cild* (Tərtib edən: Həmid Araslı). Bakı: Şərq-Qərb, 365 s.

## Проявление суфийских идей в поэзии Бекташи

**Эмин Оруджев***

**Абстракт.** В статье предоставляется обзор тариката бекташи, занимающего уникальное место в суфийском учении ислама, основанного Хаджи Бекташ-и Вели в XIII веке на территории Анатолии и в дальнейшем распространившегося на близлежащий регион. Также в исследовании разбирается поэтическая концепция, которую поэты, принадлежащие к данному тарикату, формировали на протяжении веков. Наряду с меняющимся мировоззрением, которое в разное время подвергалось ряду влияний (например, шиитский мазхаб и учение хуруфизма), в статье анализируется подход, стиль, повествование, а также развитие темы и содержания, имевшие место в литературе бекташи. В качестве основного предмета исследования приводится общая информация о жизни и литературной деятельности известных поэтов, живших и творивших в течение первого и второго этапов, на которые традиционно подразделялась литература бекташи, рассматриваются образцы поэзии каждого из них, и проводится сравнение между ними по нескольким аспектам, таким образом, показываются их сходства и различия. В статье наряду с примечаниями о поэтических концепциях таких поэтов, как Юнус Эмре, Абдал Муса, Кайгусуз Абдал, Сеид Имадеддин Насими, Шах Исмаил Хатаи, Пир Султан Абдал, Гул Гуммет, Рухи Багдади и Мухаммед Физули, об окружающей среде и течениях, которые повлияли на них, приведены примеры их стихов по теме, раскрыта как смысловая направленность стихотворений, так и стиль описания выраженных мистико-философских воззрений. Также были проведены параллели с точки зрения различного отношения к мистическим мотивам в бекташизме как на определенных этапах литературы бекташи, так и в творчестве упомянутых поэтов, принадлежащих к этой литературе. Выводы и общее мнение о предмете широко отражены на примере.

**Ключевые слова:** бекташизм, тарикат, мистика, философия, поэзия, поэт, литература

## Manifestation of sufi thoughts in Bektashi poetry

**Emin Orujov***

---

* Диссертант Института философии и социологии НАНА; Баку, Азербайджан
E-mail: eminorucov@ait.edu.az
https://orcid.org/0000-0002-0583-5053
**Цитировать статью:** Оруджев, Э. [2023]. Проявление суфийских идей в поэзии Бекташи. *Журнал «Metafizika», 6(2),* с.70-82.

**История статьи:**
*Статья поступила в редакцию: 25.04.2023*
*Отправлена на доработку: 22.05.2023*
*Принята для печати: 06.06.2023*

* Defender of Thesis of the ANAS Institute of Philosophy and Sociology; Baku, Azerbaijan
E-mail: eminorucov@ait.edu.az
https://orcid.org/0000-0002-0583-5053
**To cite this article:** Orujov, E. [2023]. Manifestation of sufi thoughts in Bektashi poetry. *"Metafizika" journal, 6(2),* pp.70-82.

**Abstract.** The article provides an overview of the Bektashi tariqa, holding a unique position in the Sufi teachings of Islam, founded by Haji Bektash-i Veli in the 13th century in the territory of Anatolia, which then spread to the nearby region. The study also covers the poetic concept that poets of this tariqa have been forming for centuries. Along with the changing ideology, subjected to a number of influences (such as the Shiite madhhab and the teachings of Hurufism) every once in a while, the article analyzes the approach, style, narrative, as well as the development of the theme and content in the literature of Bektashi. As the main subject of the study, the general information was provided about the life and literary activity of the famous poets who lived and created during the first and second stages of Bektashi literature, samples of their poetry are considered and a comparison is made between them in several aspects, thus their similarities and differences are shown. Along with the remarks on the poetic concepts common to the poets such as Yunus Emre, Abdal Musa, Kaygusuz Abdal, Seyid Imadaddin Nasimi, Shah Ismail Khatai, Pir Sultan Abdal, Gul Hummat, Ruhi Baghdadi, and Mahammad Fuzuli, as well as the environment and the schools of thought, they were influenced by, the article provides examples of their poems on the subject, reveals both the semantic orientation of the poems and the pattern of description of the mystical and philosophical views expressed. In addition, the parallels were drawn in terms of different attitudes to mystical motives in Bektashism both at certain stages of Bektashi literature and in the works of the above-mentioned poets representing this literature. Conclusions and general opinion on the subject are reflected widely through the example.

**Keywords:** Bektashism, tariqa, mysticism, philosophy, poetry, poet, literature

## REFERENCES

1. Najar, F. (2021). Kizilbashlik and Alevi-Bektashi poets in the Ottoman field, *World Journal of Human Sciences, 1*. p. 64-95.
2. Ugur, A. (2020). *Bektashilik in classical Turkish poetry*. Istanbul: Paradigma Academy, 324 p.
3. Mélikoff, I. (1993). *We Were Sleeping, They Woke Up (Alevi-Bektashi studies).* Chev, Turan Alptekin. Istanbul: Cem Publishing House. 288 p.
4. Erdoğan, K. (1993). *Alevi Bektashi*. Istanbul: İletişim Publications, 109 p.
5. Ocak, A. Y. (1992). *Bektashi.* TDV Islamic Encyclopedia, V, p. 373-379.
6. Turan, F. A. (2018). *Bektashi tekkes in Albania, IV.* Proceedings of the International Alevi and Bektashi Symposium (October 18-20, 2018 Ankara), p. 633-648.
7. Eroz, M. (1990). *Alevi Bektashi in Turkey.* Ankara: Ministry of Culture Publications, 439 p.
8. Temizkan, M. (2005). *A study on the first period of Bektashi literature and the dominant themes in this period*. Fikret Turkmen Armağani, p. 685-693.

**Article history:**
*Received: 25.04.2023*
*Accepted: 06.06.2023*

**9.** Tatci, M. (2013). *Yunus Emre*. TDV Islamic Encyclopedia, XLIII, 600-606.
**10.** Temizkan, M. (1999). *Bektashi, the main sources of Bektashi literature and the influence of Haji Bektash Veli on Bektashi literature. I.* Turkish Culture and Hacı Bektaş Veli Symposium Notices, p. 311-316.
**11.** Ozmen, I. (1998). *Anthology of Alevi-Bektashi poems (Vol. I).* Ankara: Publications of the Ministry of Culture, 592 p.
**12.** Temizkan, M. (2011). Dominant themes in the second period of Bektashi literature. *Turkish Culture and Haci Bektash Veli Research Journal, 59*. p. 325-340.
**13.** Amanoglu, E. (2007). *Shah Hatai and Bektashi, 2.* Alevi and Bektashi Information Festival in the International Turkish Cultural Universe Bulletin Book (Vol. 1), p. 603-610.
**14.** Ergun, S. N. (1956). *Hatayi Divan: Shah Ismail Safavi, his literary life and breaths.* Istanbul: Maarif Library, 248 p.
**15.** Khatai, Sh. I. (2005). *His works* (compiled by: Aliyar Safarli, Khalil Yusifli). Baku: East-West, 384 p.
**16.** Alkan, M. (2008). *Said Emre*. TDV Islamic Encyclopedia, XXXV, 555-556.
**17.** Azamat, N. (2022). *Kaygusuz Abdal*. TDV Islamic Encyclopedia, XXV, 74-76.
**18.** Gaybi, Sh. A. (2021). *Kaygusuz Abdal Kulliyati* (Prepared by: Abdurrahman Güzel). Ankara: Turkish Language Institute Publications, 1256 p.
**19.** Bilgin, A. A. (2007). *Nesimi*. TDV Islamic Encyclopedia, XXXIII, 3-5.
**20.** Kelesh, R. (2017). The seven symbolisms of the Seven Great Bards. *Turkish Culture and Hacı Bektaş Veli Research Journal, 83.* p. 49-79.
**21.** Nasimi, I. (2004). *Selected Works, Volume I* (Compiler: Hamid Arasli). Baku: “Lider” Publishing House, 345 p.
**22.** Ozmen, I. (1998). *Anthology of Alevi-Bektashi poems* (Volume II). Ankara: Ministry of Culture Publications, 757 p.
**23.** Ak, C. (2008). *Ruhi-yi Baghdadi.* TDV Islamic Encyclopedia, XXXV, 205-206.
**24.** Karahan, A. (1996). *Fuzuli* TDV Islamic Encyclopedia, XIII, 240-246.
**25.** Fuzuli, M. (2005). *Works.* Volume IV (Compiled by: Hamid Arasli). Baku: East-West, 365 p.